MÜSABİQƏ

# “Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya”

## “KİM BİLİR, BƏLKƏ DƏ ONLAR GƏLƏCƏKDƏ GÖZƏL BİR MUSİQİÇİ OLACAQLAR...”

**QAPINI açan kimi hər otaqdan fərqli musiqi səsi eşitdik. Dəhlizdə bizi istiqamətləndirəcək adamı gözümüz axtara-axtara elə hər qapının yanında bir az ayaq saxlayıb ifaları dinləmək şansını əldən vermədik. Fortepiano, nağara, tar, kamança və s. alətlərdə ifaları eşitdik. Qapıların üstündə isə sadəcə siniflər yazılmışdı...**







Bir neçə dəqiqəlik bu qiyabi səyahətimiz direktorun gəlişi ilə hələ ki başa çatdı. Salamlaşmadan sonra elə ayaqüstü söhbət zamanı bildirdi ki, bu gün onlarda nəzəriyyə yox, təcrübə dərsidir, ona görə də bütün otaqlardan ancaq musiqi səsi gəlir.

Musiqi demişkən, hazırda Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Gözdən Əlil Uşaqlar üçün 38 nömrəli 11 illik Musiqi məktəbindəyik. İlk olaraq məktəbin direktoru Əsab Əliyevlə həmsöhbət olduq. Dəhlizdə bizi qarşıladı, otağına keçib bir neçə dəqiqə söhbət etdik, amma Əsab bəyin gözlərinin görmədiyini hiss etməmişdik, ta ki özü bunu deməyənə qədər. Bəs biz bunu niyə hiss etmədik? Deyir ki, 1978-ci ildən burdadır, artıq binanın hər küncünü tanıyır, burda rahat şəkildə hərəkət etmək üçün görməyə çox da ehtiyac qalmır:

“Özüm Zaqatala rayonundanam. Musiqi məktəbinin binasının qarşısındakı üçmərtəbəli bina Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbidir. Mən 10 il orda oxumuşam və rayona ancaq tətillərdə getmişəm. İnternatda oxuya-oxuya bura açılandan sonra təhsilimi burda da davam etdirmişəm. 1988-ci ildə artıq qərara gəldim ki, gələcəyim musiqi ilə bağlıdır. Ona görə də sənədlərimi Asəf Zeynallı adına Musiqi Kollecinə verdim. Oranı bitirəndən sonra Bakı Musiqi Akademiyasına daxil oldum. 1997-ci ildə oranı bitirdim və burada müəllim işləməyə başladım. Məktəbin direktoru 2008-ci ildə rəhmətə getdi və bu iş mənə həvalə olundu”.

Musiqi məktəbi Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbinin nəzdində yerləşir. Məktəbdə təhsil alan gözdən əlil uşaqlar dərsləri bitəndən sonra musiqi məktəbinə gedirlər. Ə.Əliyev deyir ki, uşaqları seçim əsasında məktəbə cəlb edirlər: “Musiqi məktəbi olaraq hər il internatda oxuyan uşaqlar üçün qəbul prosesi aparırıq. Onları dinləyirik, bacarıqlarına, arzu və istəklərinə uyğun seçim edirik. Uşaqlarımız burada tar, kamança, qarmon, nağara, fortepiano, skripka, kanon, xanəndə siniflərində öz təhsillərini davam etdirirlər”.

Müsahibimiz deyir ki, 2009-cu ildən məktəbdə təhsil 11 illik olub. Bundan sonra məktəbi bitirən uşaqlar təhsillərini Milli Konservatoriya, Bakı Musiqi Akademiyası, Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetində musiqi fakültəsində davam etdirirlər: “Hazırda Milli Konservatoriyada beş məzunumuz təhsil alır”.

Ə.Əliyev bildirdi ki, məktəbdə uşaqlar üçün hər cür şərait var, yetər ki valideynlər övladlarını gətirməkdə maraqlı olsunlar: “İnternatda üç qisimdə təhsil alan uşaqlar var. Yolu yaxın olanlar hər gün gəlib-gedirlər. Nisbətən uzaqda qalanlar həftədə bir dəfə evə gedirlər. Ucqar bölgələrdən gələnlər isə evlərinə tətillərdə getmək daha məqsədəuyğundur. Məktəbdə dövlət tərəfindən uşaqlar üçün hər cür şərait yaradılıb”.

Və gedək otaqlara baş çəkək. İlk olaraq fortepiano dərsində iştirak edirik. Müəllim, konsertmeyster (müşayiətçi) Nigar Səlimova balaca Nərminə fortepianoda ifa etməyi öyrədir. N.Səlimova deyir ki, 2011-ci ildən burada çalışır, həm konsertmeysterdir, həm də uşaqlara fortepianodan dərs deyir. Bakı Musiqi Akademiyasında magistratura təhsili alıb. Nərminə gəlincə, hələ 1-ci sinifdə olduğu üçün ondan çox şey gözləməyin düzgün olmadığını deyir: “Yeni başlayıb, ona görə əllərinin quruluşu hələ pianinoda ifa etmək üçün tam formalaşmayıb. Qızımız balaca, alətdə ifa çətin olsa da, öyrənməyə çalışır”.

Nərminin fortepianoya özünün marağı olub. O bizə hətta “Şən qazlar” musiqisini öyrəndiyi qədər ifa da etdi. Deyir ki, öyrənmək çətin olsa da, müəlliminin sayəsində öhdəsindən gəlir.

Növbəti otağa yaxınlaşırıq, içəridən kamança ifası eşidilir. Bu otaqda 5-ci sinifdə oxuyan Sara Hüseynova kamançada ifa etməyi öyrənirdi. Bir neçə dəqiqə onun ifasını dinlədikdən sonra müəllimi İsmayıl İsmayılovla söhbətləşirik. Müəllimi deyir ki, Saranın görməsi zəifdir, amma musiqi duyumu güclüdür: “Sara yaxşıdır, öyrənmək istəyir. Amma bu ildən sonra davam etmək istəmir. Çünki başqa bir istiqamətə marağı yaranıb, ora fikrini daha çox vermək istəyir”.

İsmayıl müəllim bildirdi ki, heç görməyən, yaxud notu seçə bilməyəcək dərəcədə görməsi zəif olan uşaqlara dərsi brayl əlifbası ilə keçirlər. Görmə qabiliyyəti müəyyən qədər olanlarla isə adi əlifba ilə işləyirlər.

Sara ilə isə musiqini davam etdirməməsinin səbəbindən danışdıq: “Musiqiyə gəlməyi əvvəl özüm istədim, sonra həvəsim olmadı. Amma müəllimim məndə yenidən həvəs yaratdı. Musiqidə davam etməməyimin səbəbi yapon dilinə marağımın yaranmasıdır. 5 aydır öyrənməyə başlamışam, artıq yaponca 600-700 söz bilirəm. Kursa getmirəm, özüm internetlə öyrənirəm”.

Sonra qarmon sinfinə - Vüsal Qəhrəmanovun dərsinə gedirik. Hazırda iki uşağa dərs deyirdi. Şagirdlərdən biri 2-ci sinifdə oxuyan Cavidan Bayramov, o biri isə 6-cı sinif şagirdi Anar İsmayılzadədir. Müəllim hər iki uşağın çox qabiliyyətli olduğunu dedi: “Cavidanda görmə qabiliyyəti çox cüzidir, Anarda isə yoxdur. Cavidanın 10 yaşı var, amma çox istedadlıdır. Verdiyim bütün tapşırıqları çox yüksək səviyyədə yerinə yetirir. Hər dərsdə istedadı daha çox üzə çıxır.

Anar artıq böyük oğlandır, o da yaxşı tələbələrimdəndir, istedadlıdır. Evdə məşq edir, öz üzərində çalışır”.

Nağara ritmlərini eşidib həmin dərsdə iştirak etmədən ordan uzaqlaşa bilməzdik. Ona görə Müşfiq Əmirovun sinfinə daxil oluruq. Şagirdi balaca Aydın Şirinov idi. Müəllimi deyir ki, Aydın heç vaxt dərsdən qalmır, zirək uşaqdır, dərsə yaxşı cavab verir, amma həm də dəcəldir: “Görmə qabiliyyəti var, zəifdir. Amma çox qoçaq uşaqdır, tapşırıqları yerinə yetirir. Nazirlik köməklik göstərsə, Aydın balamız gələn il Türkiyəyə gedəcək. Xarici ölkələrə gedən uşaqlarımız çoxdur, təkcə elə mənim uşaqlarımdan 4 nəfəri gedib, o biri müəllimlərdən də var”.

M.Əmirov deyir ki, şagirdlərini öz övladı kimi sevir, bunun sayəsində onların da sevgisini qazana bilib: “Mənə həmişə sual verirlər ki, necə edirsiniz ki, uşaqlar daha çox sizin yanınıza gəlir, sizi çox istəyir? Sadəcə olaraq şagirdlərimi öz balam kimi çox istəyirəm. Dərs başlayanda ilk 5 dəqiqəni onların kefini açacaq zarafatlar edirəm. Ev tapşırığını öyrənmədən gəlirsə, “2” yazmıram, ta ki öyrənənə qədər başa salıram”.

Dəhlizdə övladını gözləyən bir xanım var idi, ona da yaxınlaşdıq. Nağara sinfində olan Anar İsmayılzadənin valideyni Zərinə Əliyeva deyir ki, övladının ev mühitində qalmaması, cəmiyyətə inteqrasiyası üçün əlindən gələni edir: “Özüm musiqi müəllimiyəm. Anarın da musiqiyə marağı oldu deyə, bura yönəltdik. Vüsal müəllim yaxşı dərs keçdiyi üçün həvəsi daha da artdı. Evdə məşq edir. Oğlumun cəmiyyətə inteqrasiya olması üçün əlimdən gələni edirəm. Musiqidən əlavə oğlumu idmana da qoymuşam. Yarışmalarda ikinci, üçüncü yerlərə çıxıb”.

Sağollaşanda məktəbin direktoru Ə.Əliyev bizi yola salanda valideynlərlə bağlı söhbət etdik. Deyir ki, hər valideynin yanaşması fərqlidir. Uşaqlarının hansısa bacarığının inkişaf etdirilməsində maraqlı olanı da var, nisbətən diqqət göstərəni də, laqeyd olanı da. Amma o həm də qeyd etdi ki, valideynlər bu məsələlərə diqqət göstərsələr, övladları üçün çox yaxşı olar. Çünki onların cəmiyyətə inteqrasiyasında bu kimi şeylər əhəmiyyət daşıyır. Kim bilir, bəlkə də onlar gələcəkdə gözəl bir musiqiçi olacaqlar, lap olmasalar, gözəl bir hobbiyə sahib olmaq da əladır.

***Könül Oruc***

*Yazı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir*